# "Nəfəsinin dəydiyi hər bir əşya mənə oğlumdan bir xatirədir"

"Mənim oğlum vətənpərvər, qayğıkeş, dost - tanışa can yandıran, onları heç bir zaman darda qoymayan bir oğul idi". Bu sözləri Vətən müharibəsi şəhidi Tural Xudiyevin anası Rəna xanım söyləyib:

İki övladım var. Oğlum Tural, qızım Nəzrin. Övladlarımızı çox çətinliklə böyütmüşdük. Yoldaşım ikinci qrup əlildir. 2005-2016-ci illərdə Bakı şəhəri Xətai rayonunda yerləşən 138 saylı orta məktəbi bitirdikdən sonra elə həmin ildə Azərbaycan Texniki Universitetin "Nəqliyyat və logistika" fakültəsinə daxil oldu.

Bacısı Nəzrin qardaşının universitetə qəbul olduğu günləri xatırlayaraq, hələ cavablar çıxmamış Tural "mən artıq ali təhsilliyəm" dediyini söyləyirdi. Universitetə daxil olduqdan sonra hərbi xidmətə yola düşmək istəyirdi. Bunun üçün təhsilini dayandırmaq lazım idi. Sənədlərə imza atmaq üçün valideynlərdən biri getməli idi. Atam getmədi. Tural söylədi ki, əgər getməsəniz, özüm universitetdən bir dəfəlik ayrılıb xidmətə yollanacam. Nəhayət anamı razı salıb, akademik məzuniyyət götürdü.

4 aprel 2019-cu ildə həqiqi hərbi xidmətə yola düşdü. Tural 2019-cu ildə Azərbaycan Silahlı Qüvvələrinin sıralarında müddətli həqiqi hərbi xidmətə başlayıb. Cəlilabad rayonunda yerləşən "N" saylı hərbi hissəsində Xüsusi Təyinatlı Qüvvələrdə xidmət edib. Xidmətdə olarkən tezliklə ailəmizə şad xəbər verəcəyini söylədi. Aradan vaxt keçdi. Yenidən zəng elədi, anam, atam və mən danışdıq. Tural dedi ki, sizlərə xoş xəbər verəcəm. Mən XTQ-yə qəbul olmuşam. Elə sevinirdi ki... Sözün düzü narahat olduq. Söylədi ki, narahat olmayın, hər şey yaxşıdır. Qardaşım mərd oğul idi. Onunla fəxr edirəm. Onun baxdığı filmlər oxuduğu kitablar ancaq vətənə aid idi.



meydanından təxliyə edilməsində göstərdiyi xidmətləri ilə fərqlənib.

Murovdağ istiqamətindən başlayaraq, Kəlbəcər, Suqovuşan, Ağdərə, Hadrut, Füzuli, Cəbrayıl və Şuşa istiqamətində gedən döyüşlərdə iştirak edib. Yaralı döyüş yoldaşı söyləyirmiş ki, Tural məni 800-1200 metrlik məsafəni sürünərək, neytral zonaya çıxardı. I Qarabağ müharibəsində qardaşım Xudu Xudiyev və qohumum Aydın Allahverdiyev şəhid olmuşdu. Tural mənimlə danışarkən əmisinin qisasını aldığını söylədi.

Tural hərbilə bağlı heç bir kəlmə belə demirdi. Hətta o xidmət etdiyi yerin nömrəsini belə söyləməmişdi. Tək istəyi torpaqlarımızın düşmən tapdağından azad olması idi. Cəbrayılda önəmli yüksəkliklərin birində bayrağı Tural qaldırıb. "Səkkizinci sinifdə oxuyarkən, Cəmşid Naxçıvanski adına Hərbi liseyə daxil olmaq üçün sənədlərini hazırladı. Lakin gözündə yaranan problemə görə qəbul ola bilmədi. Sonralar hərbi xidmətdə olanda dedi ki, özüm XTQ-yə qəbul oldum ki, müharibə başlayan zaman yenidən ön cəbhəyə qayıda bilim. Oğluma deyirdim ki, özünüzü qoruyun. Diqqətli olun. Məndən dakı dostu şəhid oldu. Turalın 10 metriliyinə düşən qəlpə qoruyucu jiletin sol tərəfindən girib, böyrəyə dəyib, bu zaman daxili qan axma baş verib. Budu və ayağı yüngülvarı yaralanıb. Əgər böyrəyi yaralanmasaydı indi həyatda olardı. Mənfur düşmən ora yardıma gələn hər bir texnika və yardım heyətini atəşə tuturdu. Bizim evə gələn döyüş yoldaşları deyirdilər ki, Tural yaralananda 35-40 dəqiqə huşu özündə olub, bizimlə zarafat belə edirdi. Hətta deyirdi ki, "mən veteran olacam".

Bizə gecə xəbər gəldi ki, Füzuli rayonu Diaqnostika mərkəzinə yaxınlaşın. Biz elə bildik ki, yaralıdı. Amma bizdən əvvəl qohumlarımız bilirdilər ki, Tural artıq şəhid olub.

Anası daha sonra söyləyir: "Yaralı olarkən döyüş yoldaşılarına söyləyib ki, mən şəhid olsam, çantamdakı məktubu ailəmə təhvil verin. Oğlum məktubu avqustun 9-u yazıb. Dəfn olunduqdan 15-20 gün sonra məktub bizə gəlib çatdı. Oğlum Ağdam rayonu Quzanlı kənd Şəhidlər xiyabanında dəfn olunub. Mən oğlumun Bakıda dəfn olunmağını istəyirdim. Amma olmadı. Məktubda isə Bakıda dayısının yanında dəfn olunmaq istədiyini yazmışdı. Nəfəsinin dəydiyi hər bir əşya mənə oğlumdan bir xatirədir. Mənə qalan tək təsəlli onun az sayda olsa da, bizə gəlib çatan əşyalarıdır".

Prezident İlham Əliyevin Sərəncamlarına əsasən Tural Xudiyev ölümündən sonra "Cəsur döyüşçü", "Vətən müharibəsi iştirakçısı" medalı, "Kəlbəcərin azad edilməsinə görə", "Xocavəndin azad edilməsinə görə", "Şuşanın azad edilməsinə görə", "Hərbi xidmətdə fərqlənməyə görə" medalları ilə təltif edilib.

**Müşfiq CƏFƏROV,**
**"Respublika".**